**AZƏRBAYCAN QANUNVERİCİLİK YENİLİKLƏRİ***  **APREL 2013**
**MÜLKİ HÜQUQ**

## SƏNƏDLƏRIN AZƏRBAYCANDA ISTIFADƏ OLUNMASI ÜÇÜN LEQALLAŞDIRILMASI

Beynəlxalq iqtisadi inteqrasiya müasir dünyanın xüsusiyyətlərindən biridir. Bir ölkənin nümayəndələrinin digər ölkədə (yurisdiksiyada) fəaliyyəti iqtisadi inteqrasiyasının formalarından biridir. İnteqrasiyaya həm hüquqi şəxs olan şirkətlər, habelə fiziki şəxslər, vətəndaşlar cəlb olunur.

Təbii sərvətlərin hesabına Azərbaycan beynəlxalq iqtisadi inteqrasiyada uzun müddətdir ki iştirak edir, lakin yalnız öz müstəqilliyini bərpa edəndən sonra Respublikamız bu proseslərin hüquqi tənzimlənməsi yollarını tapmışdır. Azərbaycanın inteqrasiya proseslərində iştirakını nəzərə alaraq, Azərbaycan Respublikasında və digər ölkələrdə qəbul edilən hüquqi aktların tətbiq edilməsi təcrübəsi böyük əhəmiyyət kəsb edir.

Xarici şəxslərin fəaliyyətini qəbul edən ölkədə təmin etmək üçün onların sənədlərinin qanuni qüvvəsi qəbul edən ölkədə tanınmalıdır. Azərbaycan Respublikasının ərazisində xarici sənədlərin hüquqi qüvvəsinin tanınması üçün bir neçə üsul nəzərdə tutulub. Rahatlıq üçün bundan sonra ölkə ərazisində xarici sənədlərin tanınmasını təmin edən bütün üsullar “leqallaşdırma” adlandırılacaq.

Mahiyyətcə, leqallaşdırma xarici ölkə məşəlli sənədin təyinat ölkəsində hüquqi qüvvəyə malik olmasını təmin edən əməliyyatdır. Azərbaycan Respublikasının ərazisində xarici sənədlərin leqallaşdırılmasının üç üsulu nəzərdə tutulur. Həmin üsullara: (i) apostil; (ii) konsulluq leqallaşdırılması; və (iii) sənədlərin hüquqi yardım haqqında iki və çoxtərəfli sazişlərə uyğun olaraq təsdiqi.

### Apostil

“Apostil” sözü fransız mənşəli sözün olması ehtimal edilir və Xarici Rəsmi Sənədlərin Leqallaşdırılması Tələbini Ləğv Edən 5 oktyabr 1961-cil tarixli Haaqa Konvensiyasının (**“Haaqa Konvensiyası”**) tələblərinə uyğun olaraq doldurulmuş və təsdiq edilən sənədlərin üzərinə qoyulan möhür kimi başa düşülür. Apostil onu qəbul edən ölkələrin ərazisində sənədin qanuni qüvvəyə malik olmasını təsdiq edir. Azərbaycan 13 may 2004-cü il tarixdən Haaqa Konvensiyasının üzvüdür.

Azərbaycan Respublikası Haaqa Konvensiyasına qoşulduğu zaman Konvensiyanın Azərbaycan ilə münasibətlərində tətbiqinə qarşı dörd ölkə qeyd-şərt irəli sürmüşdür. Bu ölkələr Almaniya Federativ Respublikası, Niderland Krallığı, Macarıstan və Belçika Krallığı olmuşdur. Lakin, Belçika və Macarıstanın qeyd-şərtləri, onların verilmə müddətinin buraxılması səbəbindən rədd edilmişdir. Niderland tərəfindən 10 avqust 2010-cu il tarixdə qeyd-şərt geri çağırılmışdır və Haaqa Konvensiyası həmin ölkə və Azərbaycan Respublikası arasında tətbiq olunur. Hal-hazırda Haaqa Konvensiyası yalnız Azərbaycan və Almaniya Federativ Respublikası arasında tətbiq olunmur və sənədlərin leqallaşdırılması üçün konsulluq leqallaşdırılması üsulu istifadə edilir.

### Konsulluqda Leqallaşdırma

Konsul leqallaşdırılması, Haaqa Konvensiyasının iştirakçısı olmayan və aralarında hüquqi yardım haqqında iki və ya çoxtərəfli müqavilələrini tətbiq etməyən ölkələr arasında istifadə edilir. Adı çəkilən üsul sənədlərin leqallaşdırma üsullarından ən çətin və uzunudur.

Konsulluq leqallaşdırılması tərəflərin notariuslarının, göndərənin ölkəsində Ədliyyə və Xarici İşlər Nazirliklərinin və qəbul edənin ölkəsinin konsulluğunun iştirakı ilə aparılan çox-mərhələli prosesdir. Proses çox-mərhələli olmaqla çox vaxt və maliyyə vəsaitlərin sərfini tələb edir.

Misal üçün, göndərənin ölkəsinin konsulluğu qəbul edənin ölkəsində mövcud deyilsə, ən yaxşı halda, əcnəbi sənədi qəbul edənin ölkəsinin maraqlarını təmsil edən üçüncü ölkənin konsulluğunda leqallaşdırılmalı olacaq. Ən pis halda isə, əcnəbi sənədlərini qəbul edənin ölkəsinin maraqlarını təmsil edən qonşu dövlətdəki konsulluğuna göndərmək məcburiyyətində olacaq.

Tez-tez belə bir vəziyyətə də rast gəlmək olar ki, hər hansı dövlətin digər ölkədə konsulluğu olsa da, konsul təyin olunmayıb (akkreditasiyadan keçməyib) və konsulluq ölkədə faktiki olaraq fəaliyyət göstərmir. Belə halda hər hansı üçüncü ölkənin konsulluğunda və ya Azərbaycanın üçüncü ölkədəki konsulluğunda sənədlərin leqallaşdırılması demək olar ki, mümkün olmayacaq.

**Hüquqi Yardım haqqında Sazişlər**

Hüquqi yardım haqqında iki və çoxtərəfli sazişlərə müvafiq olaraq sənədlərin leqallaşdırılması sadə və rahat üsuludur. Bu üsulun mahiyyəti ondan ibarətdir ki, hüquqi yardım barəsində beynəlxalq və ya ikitərəfli sazişləri bağlayan ölkələr sənədlərin leqallaşdırılmasını asanlaşdırır.

Belə ki, MDB ölkələri arasında 7 oktyabr 2002-ci il tarixli "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər" haqqında Kişinyov Konvensiyası tətbiq edilir. Bu Konvensiyanın müddəalarına uyğun olaraq, bir ölkənin notariusu və ya müvafiq dövlət orqanları tərəfindən təsdiq edilmiş sənədlər qəbul edənin ölkəsinin ərazisində hüquqi qüvvəyə malikdir. Bir praktiki xüsusiyyəti də qeyd etmək vacibdir ki, sənədi təsdiq edən ölkənin notariusun və ya dövlət orqanının möhüründə göndərən ölkənin gerbi əks olunmalıdır.

Həmçinin qeyd etmək lazımdır ki, mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım haqqında ikitərəfli müqavilələr Azərbaycan Respublikası ilə Türkiyə, Latviya və bir çox MDB ölkələri arasında bağlanmışdır.

**İSTƏNİLƏN SUAL VƏ ƏLAVƏ MƏLUMAT ÜÇÜN BİZİMLƏ ƏLAQƏ SAXLAYIN:**

**BM Morrison Partners**
**Tel: (994 12) 497 19 14; 497 19 15**
**Faks: (994 12) 497 19 13**
**E-mail: info@bmlawaz.com**

©2013 BM Morrison Partners. Bütün hüquqlar qorunur.

* Nəşrimizdə olan məlumat hüquqi və ya digər peşəkar məsləhət təşkil etmir.